

# Qarabağ yurd, Vətən sevgisi ilə tezliklə cənnətə çevriləcək

***Ümummilli lider Heydər Əliyev 2003-cü ilin oktyabrın 15-də keçirilən prezident seçkiləri ərəfəsində – həmin ayın 1-də xalqımıza tarixi müraciətində uzaqgörənliklə əsasını qoyduğu siyasi kursu davam etdirə biləcək ünvanı dəqiq göstərdi: “Üzümü Sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək, Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.***



Azərbaycan Prezidenti kimi andiçmə mərasimində “Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam”, – deyə bəyan edən cənab İlham Əliyev ötən illər ərzində dahi rəhbərin ölkəmizin tərəqqisi, xalqın rifahı ilə bağlı bütün arzularını reallığa çevirdi, möhkəm təməllər üzərində formalaşdırdığı dövlətimizi yüksək inkişaf səviyyəsinə qaldırdı, respublikamızın beynəlxalq nüfuzunu gücləndirdi. Bir sözlə, yüksək intellekti, işgüzarlığı, təvazökarlığı, savadı, səmimiliyi, mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilən cənab İlham Əliyev dövlət başçısı kimi məsuliyyətli və şərəfli vəzifənin öhdəsindən inamla, ləyaqətlə gəldi.

Prezident İlham Əliyev respublikaya rəhbərlik etdiyi ötən 18 ildə yeritdiyi müdrik daxili və xarici siyasətlə, reallaşdırdığı nəhəng layihələrlə Azərbaycanı bölgənin liderinə, dünyada isə sözsahibinə çevirib. Ümummilli lider Heydər Əliyevin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, Cənub qaz dəhlizi kimi mürəkkəb infrastruktur layihələri icra olunub, Azərbaycan fəzaya göndərdiyi 3 peyklə kosmik klubun üzvünə çevrilib. Nəqliyyat layihələrinin həyata keçirilməsinin nəticəsi olaraq Azərbaycan Şimalla Cənub, Şərqlə Qərb arasında ən etibarlı, ən sürətli və ən təhlükəsiz tranzit qovşağı kimi tanınıb.

Azərbaycanın iqtisadi və maliyyə gücü də ildən-ilə artıb. Hazırda ölkənin valyuta ehtiyatları 53 milyard dollara çatıb. Milli iqtisadiyyat son 18 il ərzində 3,2 dəfə, o cümlədən, sənaye 2,6 dəfə, kənd təsərrüfatı 1,7 dəfə yüksəlib. Bundan başqa, qeyri-neft ixracı 4,7 dəfə artıb. Əməkhaqları, təxminən, 7 dəfə, minimum əməkhaqqı 23 dəfə, pensiyalar 9 dəfə yüksəlib, 3,1min məktəb, 640-dan çox xəstəxana, eyni zamanda çoxsaylı sosial obyektlər tikilərək istifadəyə verilib. Bu dövrdə respublikada yoxsulluq kəskin şəkildə azalıb, təxminən, 50 faizdən 5,1 faizə düşüb. İşsizliklə bağlı böyük işlər görülüb. İşsizlik Azərbaycanda 5 faiz səviyyəsində qərarlaşıb. Şübhəsiz ki, yoxsulluğun azalmasına əhalinin məşğulluq imkanlarının artırılması mühüm təsir göstərib.

Cənab İlham Əliyevin 18 illik prezidentlik fəaliyyətində ən mühüm tarixi hadisə isə Qarabağın yağı tapdağından xilas edilməsi olub. Bu tarixi qələbə dövlətimizin başçısının “Qarabağ Azərbaycandır və nida” ifadəsinin müəllifi kimi xalqa verdiyi vədə sadiqliyini göstərdi. Bununla da Prezident İlham Əliyevin adı torpaqlarımızın xilaskarı kimi tarixə qızıl hərflərlə əbədi yazıldı.

Dövlətimizin başçısı Vətən müharibəsi başlayana kimi ölkənin sosial-iqtisadi inkişafı ilə bərabər, Qarabağ münaqişəsinin aradan qaldırılması məsələsinə də xüsusi önəm verib, beynəlxalq tədbirlərdə xalqımızın üzləşdiyi bu tarixi ədalətsizlik, erməni faşizminin torpaqlarımızın 20 faizinin işğal altında saxlaması barədə çıxışlar edib, erməni lobbisinin informasiya blokadasını yararaq, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırıb. Apardığı müdrik, uzaqgörən siyasətlə xalq-iqtidar birliyini möhkəmləndirib, silahlı qüvvələrimizi respublikamızın iqtisadi gücündən bəhrələnərək, həm də dünyanın kifayət qədər möhkəm ordularından birinə çevirməyə prioritet istiqamət kimi yanaşıb. Prezident İlham Əliyev bu zaman hərbçilərimizin döyüş hazırlığının gücləndirilməsi ilə bağlı tədbirlərin gerçəkləşdirilməsi, irimiqyaslı təlimlərin keçirilməsi, ordunun müasir silahlarla silahlandırılması, artilleriya və aviasiyanın, eləcə də digər sahələrin inkişaf etdirilməsini diqqət mərkəzində saxlayıb.

Yeri gəlmişkən, burada bir məqamı da vurğulamaq yerinə düşərdi. Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsinə qədər gücləndirilməklə bərabər, Silahlı Qüvvələrimizdə xidmət keçən əsgər və zabitlərimizdə Vətənə dərin sevgi hissi də formalaşdırılmışdı. Vətən müharibəsində bu, öz təsdiqini tapdı. Bunu hazırda erməni tərəfi də etiraf edir. Ermənistan Müdafiə Nazirliyinin keçmiş mətbuat katibi Artsrun Hovannisyan bildirirb ki, savaş günlərində Azərbaycan əsgərləri bayrağı sinəsinə sıxıb, “ölmək istəyirik, bizə toxunmayın deyirdilər”. “Mübarizlər” səhifəsinin yaydığı görüntülərdə erməni jurnalisti Roman Baqdasaryan da Hovannisyanın səsləndirdiyi fikirləri yenidən dilə gətirərək bildiririb ki, “Azərbaycan əsgərlərində ruh, torpaq eşqi var. Bəs ermənilərdə hansı ruh, hansı yurd məhəbbəti var? Yoxdur və bundan sonra da olmayacaq”.

Onu da deyim ki, hələ Vətən müharibəsinə qədər Prezident İlham Əliyevin müdrik siyasəti ilə ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası kimi beynəlxalq təşkilatların və bir sıra digər nüfuzlu qurumların Azərbaycanın ədalətli mövqeyini dəstəkləmələri nəticəsində çox möhkəm beynəlxalq təməl yaranmışdı. Azərbaycan bu təmələ, həmçinin BMT-nin nizamnaməsinə əsaslanaraq, eyni zamanda, beynəlxalq hüquq çərçivəsində hərəkət edərək, ötən il sentyabrın 27-də əks-həmlə əməliyyatı ilə 44 gün ərzində döyüş meydanında işğalçının uzun illər ərzində qurduğu, keçilməz hesab edilən müdafiə xətlərini qəhrəmanlıqla yardı, Ermənistanın hava hücumundan müdafiə sistemlərini və hərbi hava qüvvələrini sıradan çıxartdı. İşğalçı qüvvələrə ağır zərbələr endirdi, onların çoxlu sayda canlı qüvvəsini və hərbi texnikasını məhv etdi. Bununla da düşmənin öz silahlı birləşmələrinin güc-qüdrəti haqqında yaydığı məlumatların həqiqətdən tamamilə uzaq olduğunu göstərdi.

Vətən müharibəsi bir daha göstərdi ki, işğalçı uzun illər ərzində ordu yaratmaq əvəzinə, qəsb etdiyi Qarabağı və ətraf ərazilərimizi xarabalığa çevirib, təbii sərvətlərimizi talayıb, Ermənistanda tüğyan edən korrupsiya və rüşvətxorluğu “çiçəkləndirib”. Azərbaycan isə, əksinə, hərbi quruculuğu prioritet istiqamətlərdən biri kimi diqqət mərkəzində saxlayıb. Ölkəmizin iqtisadi potensialını silahlı qüvvələrimizin ən yüksək standartlara cavab verməsinə yönəldilib.

İkinci Qarabağ müharibəsinin ən şərəfli səhifələrindən biri Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün oldu. Həmin gün – 2020-ci il noyabrın 8-də Prezident, Ali Baş Komandan İlham Əliyev əvvəlcə Fəxri xiyabana getdi. Burada dahi şəxsiyyətin abidəsi önündə böyük sayğı və ehtiramla onun ruhu qarşısında baş əydi. Sonra Şəhidlər xiyabanını ziyarət edərək Qarabağın incisi və tacı sayılan Şuşa şəhərinin azadlığı müjdəsini xalqımıza və bütün dünya azərbaycanlılarına yetirdi. Eyni zamanda, bu müqəddəs savaşda qazanılan möhtəşəm zəfərlə adı milli dövlətçilik tariximizə əbədi yazılan cənab İlham Əliyev ata vəsiyyətini uğurla yerinə yetirdiyini bəyan etdi və kövrək duyğularını soydaşlarımızla bölüşdü. Prezident İlham Əliyev çıxışında dedi: “Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük qələbədir! Şəhidlərimizin, ulu öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”



Beləliklə, 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli Bəyanatla 30 ildən artıq davam edən münaqişəyə son qoyuldu. Bununla da erməni şovinistlərinin Azərbaycan xalqına və dövlətinə qarşı uzun dövr ərzində həyata keçirdikləri etnik təmizləmə və işğalçılıq siyasətinin qarşısının alınması ilə bağlı tarixi missiya uğurla yerinə yetirildi və tarixi ədalət bərpa olundu.

Vətən müharibəsində əldə edilən möhtəşəm zəfər Ali Baş Komandan İlham Əliyevin yenilməz iradəsinin, böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsinə çevrildi. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın və Şərqi Zəngəzurun düşməndən təmizlənməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtardı və onu bütün dünyada qalib xalq kimi tanıtdı.

Azərbaycan torpaqlarının uzunmüddətli işğalına son qoyan İkinci Qarabağ müharibəsindən artıq bir ilə yaxın vaxt keçir. Ordumuzun əldə etdiyi parlaq qələbə ilə regionda, eləcə də respublikamızda yeni dönəm, yeni inkişaf mərhələsi yaşanır. Prezident İlham Əliyev vaxtaşırı çıxışlarında, müsahibələrində bu barədə ətraflı bəhs edir. Dövlətimizin başçısı müharibədən sonra bölgədə tamamilə fərqli bir mənzərə yarandığını diqqətə çatdıraraq, hazırda işğaldan azad olunan ərazilərin yenidən qurulması prosesinin sürətlə gerçəkləşdiyini vurğulayır. Bu məsələdə diqqətçəkən cəhət odur ki, dövlətimizin başçısı davamlı şəkildə işğaldan azad olunan rayonlara səfərlər edir, düşməndən təmizlənən ərazilərin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılmasını diqqət mərkəzində saxlayır, erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməlini qoyur, tikinti-quruculuq işlərinin gedişi ilə maraqlanır, bu istiqamətdə dəyərli tapşırıq və tövsiyələrini verir. Bütün bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasında yüksək texnologiyaların tətbiqinin zəruriliyini diqqətə çatdırır.

Qarabağda bərpa-quruculuq layihələrinin reallaşdırılması o qədər də asan məsələ deyil. Çünki 30 il işğal altında saxlanılan böyük bir ərazidə toxunulmamış, dağıdılmamış bir şəhər, bir qəsəbə, kənd belə saxlanılmayıb. Düşmən hər yeri xarabalığa çevirib, maddi-mədəni abidələrin izlərini silib, infrastrukturu yerlə bir edib. Ölkə rəhbəri çıxışlarının birində bu barədə deyib: “Biz müzəffər xalq kimi özümüzü dünyada təsdiq etmişik. Ermənistan isə məğlub edilmiş ölkədir, bizim qarşımızda diz çökmüş ölkədir, başını, boynunu bükmüş ölkədir və həmişə belə olacaq. Onların törətdikləri vəhşilikləri görəndə adam dəhşətə gəlir. Bütün şəhərlərimiz dağıdılıb, məscidlər dağıdılıb. Məscidlərdə inək, donuz saxlayıblar, bütün müsəlman aləmini təhqir ediblər, qəbirləri dağıdıblar, qəbirləri şumlayıblar, dəfn edilmiş insanların qızıl dişlərini çıxarıblar. Bu, vəhşi deyil, nədir?”. Qarabağ bölgəsi və ətraf rayonların bu hala salınmasına, bəlkə də, indiyə qədər dünyanın heç bir yerində rast gəlinməyib. Bəli, bu, erməni vəhşiliyinin bariz ifadəsidir, düşmənin əxlaq və düşüncəsinin məntiqi nəticəsidir.

Prezident İlham Əliyev çıxışlarının birində dediyi “Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq...”, – sözləri savaşdan ötən bir il ərzində öz təsdiqini tapıb. Məhz bu məqam da dövlətimizin başçısının sözü ilə əməlinin vəhdət təşkil etdiyini, vədinə sadiqliyini göstərir. Müharibədən sonra görülən bərpa işlərinin miqyasını təsəvvürümüzə gətirəndə bu, açıq-aşkar nəzərə çarpır. Qarabağ və Şərqi Zəngəzurda bu müddətdə, bəlkə də, on illər ərzində görülə biləcək tədbirlər reallaşdırılıb, layihələr icra olunub. Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın bir yerdə Zəngəzur dəhlizinin təməlini qoymaları isə tarixi hadisəyə çevrilib. Şuşaya Zəfər yolu çəkilib, Zəngilanda “Ağıllı kənd” salınmasına başlanıb, erməni vandallarının Xirosimaya çevirdikləri Ağdamın yenidən tikilməsi istiqamətində xeyli iş görülüb, Qarabağın hava qapısı – Füzuli Beynəlxalq Hava Limanı istifadəyə verilib. Bölgə elektrikləşdirilib, suyu qurudulan bulaqların gözü açılıb, yolların bərpası, kommunikasiyaların qurulması diqqətdə saxlanıb.

Qarabağda aparılan bütün bu tikinti, abadlıq-quruculuq işlərinin vüsəti artıq beynəlxalq aləmdə də heyranlıqla qarşılanır. Prezident İlham Əliyevin sözləri ilə desək, bu gün işğaldan azad olunan ərazilərdə bərpa layihələrinin belə yüksək templə icrası dünyada böyük maraq doğurur. Bu, maliyyə vəsaiti, texniki imkanlar, kadr potensialı və daxili resurslarla bərabər, ən əsası torpağa insan sevgisi, Vətən məhəbbəti ilə bağlı məsələdir. Bax, bu amil Qarabağı və Şərqi Zəngəzurun tez bir zamanda cənnətə çeviriləcəyini deməyə əsas verir. Dövlətimizin başçısı da bütün bunları nəzərə alaraq bildirib: “Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq qələbəmiz buna əyani sübutdur”.

Sonda bir məsələni də diqqətə çatdırmaq istərdim. Cənab İlham Əliyev Vətən müharibəsi günlərində olduğu kimi, postmünaqişə zamanında da istər respublikamızda, istərsə də xarici ölkələrə səfərləri çərçivəsində keçirdiyi görüşlərdə beynəlxalq ictimaiyyətə Azərbaycanın sülhün tərəfdarı olduğunu, regionda əmin-amanlığın bərpasına çalışdığını, eyni zamanda, savaşdan sonra yaranan mövcud reallıqla Ermənistanın barışmasının zəruriliyini diqqətə çatdırır.

Dövlətimizin başçısının Avropa İttifaqının Şərq Tərəfdaşlığı Proqramının VI Sammitində iştirak etmək üçün dekabrın 13-də Belçika Krallığının paytaxtı Brüsselə işgüzar səfəri çərçivəsində iştirak etdiyi görüşlərdə səsləndirdiyi fikirlər də bunun parlaq ifadəsidir. Cənab İlham Əliyev bu fikirləri ilə Qarabağla bağlı əsil həqiqətləri, ölkəmizin haqlı mövqeyini beynəlxalq ictimaiyyətə çatdırmaqla bərabər, bu məsələlər barədə bilgiləri əsasən səhv ssenariyə əsaslanan bəzi xarici qüvvələrin ədalətsiz yanaşmasını da rədd edir.

***Rövşən ƏLVƏNDOV,***
***ehtiyatda olan polkovnik***